MİNGƏÇEVİR
DÖVLƏT
UNİVERSİTETİ

# MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİNDƏ TƏHSİLALANLARIN UNİVERSİTETDAXİLİ NİZAM-İNTİZAM

# Q A Y D A L A R I

## I. Ümumi müddəalar

**1.1**. “Mingəçevir Dövlət Universitetində (MDU) Təhsilalanların Universitetdaxili Nizam-intizam Qaydaları” (bundan sonra - Qaydalar) Azərbaycan Respublikasının Konstitusiyasına, “Təhsil Haqqında” Qanununa, “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydalarına”, “Təhsil prosesi iştirakçılarının etik standartlar modeli”nə və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

**1.2**. Bu Qaydaların tətbiqində əsas məqsəd təhsilalanlar arasında təlim-tədris intizamını möhkəmləndirmək və onlarda tədris prosesinə şüurlu yanaşmanı formalaşdırmaqdır

**1.3.** Bu Qaydalar Mingəçevir Dövlət Universitetinin bütün təhsilalanların Universitet daxilində ümumi davranışında və tədris prosesi iştirakçıları ilə real və virtual müstəvidə qarşılıqlı münasibətlərində yol verməməli olduğu intizam pozuntularını və müvafiq intizam məsuliyyətini müəyyən edən normalardan ibarətdir.

**1.4.** Bu Qaydalar Universitetə daxil olduğu andan etibarən bütün təhsilalanlar üçün məcburi xarakter daşıyır.

**1.5.** Bu Qaydaların pozulmasına görə təhsilalanlara tənbeh tədbirləri tətbiq edilir.

## II. Bu qaydaların tətbiqi zamanı aşağıdakı prinsiplər əsas götürülür:

**2.1**. Bərabərlik prinsipi,
**2.2**. Ədalət prinsipi,
**2.3**. Humanizm prinsipi.

## III. Təhsilalanların əsas hüquqları

**3.1**. Universitetdə təhsilalanlar aşağıdakı hüquqlara malikdirlər:

a) dövlət təhsil standartlarına uyğun təhsil almaq, elm, texnika və mədəniyyətin müasir səviyyəsinə uyğun müvafiq bilik qazanmaq və ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərinin seçilib müəyyənləşdirilməsində iştirak etmək;

b) universitet rektorun razılığı əsasında başqa ali təhsil müəssusəsində bütün növ dərslərdə iştirak etmək(akademik mobillik);

c) universitetin fəaliyyətilə bağlı mühüm məsələlərinin müzakirə və həllində iştirak etmək;

ç) universitet kitabxanasından, informasiya resurslarından qaydasında, tədris, elmi və digər bölmələrin xidmətindən ödənişsiz istifadə etmək;

d) bütün növdən olan elmi tədqiqat işlərində, konfranslarda, simpoziumlarda iştirak etmək, öz işlərini nəşrə, həmçinin universitetin nəşrlərinə təqdim etmək;

e) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada səlahiyyətli orqan və ya şəxslərin qərar, əmr və sərəncamlarından şikayət vermək;

ə) dövlət təhsil proqramları çərçivəsində tədris planı fənlərindən əlavə mobil tədris fənləri, həmçinin mütəxəssis hazırlığı üçün sifarişçinin maraqlarını əks etdirən fərdi təhsil planı üzrə təhsil almaq;

f) əlavə (həmçinin ödənişli) tədris xidmətləri əldə etmək;

g) özünün şərəf və ləyaqətinə hörmətlə yanaşmağı tələb etmək;

ğ) vicdan, informasiya, şəxsi fikir və əqidə azadlığına malik olmaq;

h) rastlaşdığı problem və ya haqsızlıqlar haqqında məsul struktur rəhbərlərinə məlumat vermək;

x)Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlar.

## IV. Təhsilalanların əsas vəzifələri:

**4.1.** Universitetdə təhsilalanlar aşağıdakı vəzifələri yerinə yetirməyə borcludurlar:

a) təhsil aldığı müddətdə Universitetin nizamnamə, əsasnamə, əmrlər, sərəncamlar, nizam-intizam qaydalarına və s. əməl etmək;

b) tələbə yoldaşlarına, Universitet əməkdaşlarına qarşı diqqətli olmaq və onlara hörmətlə yanaşmaq;

c) Universitetin əmlakını qorumaq və onun korlanması və itməsinə görə müəyyən olunmuş qaydada müvafiq maddi məsuliyyət daşımaq;

ç) təhsilalan (tələbə) adına yaraşmayan və qanunla qadağan edilmiş hərəkətlərə yol verməmək;

d) Universitetdə səliqə-sahmanın yaradılmasına və qorunmasına dəstək vermək;

e) dərs prosesinin normal gedişinə mane olan hərəkətlər etməmək;

ə) Universitetin nüfuzuna və dəyərlərinə zidd hərəkətlər etməmək;

f) ixtisas üzrə bilik, praktiki vərdişlərə və seçilmiş ixtisas üzrə əmək bazarının tələblərinə uyğun kompitensiyalar və təhsil haqqı ilə bağlı müasir tədqiqat metodlarına yiyələnmək;

g) ixtisas üzrə tədris planının tələblərini yerinə yetirmək və tədris planı ilə nəzərdə tutulan tədris dərslərinin bütün növlərində iştirak etmək;

ğ) ali təhsil müəssisəsi ilə bağlanmış müqavilə öhdəliklərini yerinə yetirmək**;**

h) rəhbərliyin və ya daxili mühafizə əməkdaşlarının tələbi ilə şəxsiyyəti təsdiq edən sənədi, yaxud tələbə biletini dərhal təqdim etmək;

x) həm universitetdə, həm də universiteti təmsil etdiyi ictimai yerlərdə nizam-intizamlı və səliqəli olmaq;

ı) texniki personalın bütün tədris otaqlarında yaratdığı lazımi təmizliyə riayət etmək;

i) üzrlü səbəblərə görə dərslərə gəlmədikdə, növbəti gündən gec olmamaq şərtilə fakültə dekanını xəbərdar etmək və universitetə gələn günü dərslərin buraxılması səbəbləri haqda məlumat vermək. Xəstə olduğu halda müvafiq səhiyyə müəssisəsinin müəyyən olunmuş formada tibbi arayışını təqdim etmək;

j)Universitetin inzibati binasında, auditoriyalarda, dəhlizlərdə və sanitar qovşaqlarda siqaret çəkməmək; (xüsusi ayrılmış ərazilər istisna olunmaqla)

k)Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələr.

## V. Qrup nümayəndəsi və onun vəzifələri:

**5.1**. Hər bir qrupda fakültə dekanı tərəfindən müvəffəqiyyətlə oxuyan (və ya yüksək balla universitetə daxil olan), nizam-intizamlı təhsilalanlar arasından qrup nümayəndəsi seçilir.

**5.2.** Qrup nümayəndəsi birbaşa olaraq fakültə dekanına tabedir. O, dekanın göstərişlərini dekan müavininin, tyutorların və qrup tələbələrinin nəzərinə çatdırır.

**5.3**. Qrup nümayəndəsinin əsas vəzifələri aşağıdakılardır:

a) bütün növ dərlərdə təhsilalanların davamiyyətinin fərdi uçotunu aparmaq;

b) səbəblərini qeyd etməklə təhsilalanların dərsə gecikmə və gəlməmələri haqqında dekana (dekana müavininə) gündəlik məlumatları təqdim etmək;

c) bütün növ dərslərdə qrupun tədris intizamının vəziyyətinə, həmçinin də tədris avadanlığı və invertarların qorunmasına nəzarət etmək;

ç)fakültə rəhbərliyi tərəfindən dərs cədvəlinə edilən dəyişikliklər haqqında təhsilalanları vaxtında məlumatlandırılmasını təmin etmək;

d)qrupdakı təhsilalanların Universitet və fakültə tərəfindən keçirilən müxtəlif elmi və sosial-mədəni tədbirlərdə iştirakını (könüllülük prinsipi gözlənilməklə) təşkil etmək,

**5.4**. Hər bir qrup üçün fənlər üzrə qeydiyyat jurnalı tərtib olunur. Jurnallar fakültənin dekanlıqlarında saxlanılır və hər gün dərsdən əvvəl qrup nümayəndəsinə təqdim edilir. Qrup nümayəndəsi dərs bitdikdən sonra jurnalı müvafiq qaydada dekanlığa təhvil verir.

## VI. Tədris prosesinin təşkili qaydaları

**6.1.** Universitetdə dərslər müəyyən edilmiş qaydada təsdiq edilən təhsil proqramları və tədris planı əsasında hazırlanmış və təsdiq edilmiş cədvəl üzrə həyata keçirilir. Tədris planları ilə nəzərdə tutulan tədris müddətinin qısaldılmasına yol verilmir.

**6.2**. Dərs cədvəli hər semestr üçün tərtib edilir və hər semestrin başlanmasına 10 gün qalmış xüsusi müəyyən olunmuş guşədən asılır.

**6.3.** Universitetdə dərslərin reqlamenti rektor tərəfindən verilmiş əmrlə müəyyən edilir. Dərslərin başlanması I növbə üçün saat $8^{00}$, II növbə üçün saat $13^{30}$ müəyyən edilmişdir. Bütün dərslər, bir qayda olaraq, iki akademik saat ərzində keçirilir. Akademik saatlar arasında 5 dəqiqəlik fasilə elan edilir. Bu halda hər akademik saat 45 dəqiqə qəbul edilir. Hər iki növbədə iki akademik saat başa çatdıqdan sonra 10 dəqiqə müddətində fasilə verilir. Dərslərin və fasillərin müddətləri rektorun əmri ilə müəyyən edilir.

**6.4.** Zəngdən sonra təhsilalanın növbəti fasiləyə kimi auditoriyaya daxil olması, təhsilverənin icazəsi olmadan tərk etməsi, dərs zamanı dərsin normal gedişini pozacaq mobil telefonlardan və digər informasiya texnologiyaları vasitələrindən istifadə edilməsi qəti qadağandır. Dərslər başlandıqdan sonra bütün auditoriyalarda və digər onlarla yanaşı olan otaqlarda dərslərin normal gedişi üçün zəruri olan sakitlik və qayda-qanun təmin edilməlidir.

## VII. Təhsildə müvəffəqiyyətlərə görə həvəsləndirmə tədbirləri

**7.1**.Akademik müvəffəqiyyətlərinə, universitetin elmi-tədqiqat və ictimai həyatında fəal iştirakına görə təhsilalanlar üçün aşağıdakı həvəsləndirmə tədbirləri təyin edilir:

a) təşəkkür elan etmə;

b) fəxri fərmanla təltif etmə;

c) müxtəlif hədiyyələrlə təltif etmə;

**7.2**. Həvəsləndirmələr tələbə təşkilatlarının rəyi və fakültə dekanının təqdimatı nəzərə alınmaqla rektorun əmri ilə elan edilir və tələbələrinin nəzərinə çatdırılır.

**7.3**. Həvəsləndirmələr haqqında əmrlərdən çıxarış tələbənin şəxsi işində saxlanılır.

## VIII.Tədris intizamını möhkəmləndirmək məqsədilə tətbiq edilən qadağalar:

**8.1.**Tədris intizamını möhkəmləndirmək məqsədilə Universitet binasında aşağıdakılar yolverilməzdir:

a) dərs zamanı dəhlizlərdə ucadan danışmaq, səs-küy salmaq;

b) kitabxanalarda oxuculara mane olacaq səviyyədə danışmaq və səs-küy salmaq;

c) dərs zamanı auditoriyalarda qida məhsullarından istifadə etmək; (su istisna olunmaqla)

ç) spirtli içkilər içmək və ya spirtli içki içərək Universitet binasına daxil olmaq;

d) dəhlizləri və auditoriyaları zibilləmək.

e) cavabdeh şəxslərin icazəsi olmadan tədris auditoriyaları və digər otaqlardan əşya və müxtəlif avadanlıqları çıxarmamaq;

## IX. Tədris intizamının pozulmasına görə məsuliyyət

**9.1.** Universitetdaxili nizam-intizam qaydalarının pozulmasına görə təhsilalanlara qarşı aşağıdakı intizam tənbehindən biri tətbiq edilir:

a) xəbərdarlıq;

b) töhmət;

c) sonuncu xəbərdarlıqla şiddətli töhmət;

ç) Universitetdən xaric edilmə

**9.2**. **Xəbərdarlıq** təhsilalana hərəkət və davranışlarında daha diqqətli olması vacibliyinin yazılı şəkildə bildirilməsidir və aşağıdakı hallarda verilir:

a) başqalarına qarşı kobudluq və hörmətsizlik etdikdə;

b) başqalarını narahat edəcək şəkildə ucadan danışmaq, qışqırmaq, mahnı oxumaq, musiqiyə qulaq asmaq və səs-küy saldıqda;

c) ətrafın təmizliyinə riayət etmədikdə;

ç) Universitetin səlahiyyətli şəxsləri tərəfindən soruşulan sualları və verilən sorğuları üzürlü səbəb olmadan vaxtında cavablandırmadıqda;

d) Universitetdə müəyyən olunmuş yerlər xaricində elanlar asdıqda;

e)Universitetin müvafiq strukturlarının icazəsi ilə asılmış elanları qopardıqda, dəyişdirdikdə, qaraladıqda və ya yararsız hala saldıqda;

ə) yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntusuna yol verdikdə,

**9.3**. **Töhmət** təhsilalana hərəkət və davranışlarında yol verdiyi pozuntuların yazılı şəkildə bildirilməsidir və aşağıdakı hallarda verilir:

a) hərəkətləri və davranışı ilə mühazirə, seminar, laboratoriya dərsləri, elmi konfrans, mədəni tədbir və s. gedişini pozduqda;

b) divarlara və əşyaların üzərinə yazı yazmaq, işarələr qoymaq, şəkil çəkmək və digır inventarları korladıqda;

c) auditoriyada mobil telefonlardan istifadə etməklə dərsi pozduqda;

ç) icazəsiz olaraq elanlar və digər yazılı məlumatlar yaydıqda;

d) imtahan qaydalarını qəsdən pozduqda;

e) başqalarına qəsdən sözlə və hərəkətlə sataşdıqda;

ə)Universitetin səlahiyyətli şəxsləri tərəfindən tələb olunan məlumatları onlara məqsədli şəkildə natamam və yanlış şəkildə bildirdikdə;

f) imtahanlarda hədə-qorxu gələrək köçürdükdə və köçürən tələbələrin imtahan otağından uzaqlaşdırılmasına mane olduqda;

g) bilərəkdən öz əvəzinə başqasının imtahan verməsinə şərait yaratdıqda və ya başqasının əvəzinə imtahan verdikdə;

ğ) imtahan suallarının bir qismini və ya bütövlükdə, hər hansı bir qeyri qanuni yolla əldə etdikdə;

h) digər oxşar intizam pozuntusuna yol verdikdə

**9.4.** Təhsilalana **sonuncu xəbərdarlıqla şiddətli töhmət** yol verdiyi intizam pozuntusu qeyd olunmaqla yazılı şəkildə bildirilir və aşağıdakı hallarda verilir:

a) Universitet daxilində siyasi və dini təbliğatla məşğul olduqda;

b) nizam-intizam qaydalarının pozulması ilə bağlı aparılan araşdırmaya mane olduqda;

c) Universitet tərəfindən verilmiş sənədi istifadə üçün başqasına verdikdə və ya başqasına aid olan sənədi istifadə etdikdə;

ç) Universitet daxilində və xaricində şərəf və ləyaqətini alçaldan hərəkətlərə yol verdikdə;

d) Universitetin inzibati binasında və ya ərazisində spirtli içki içdikdə və ya universitetə içkili vəziyyətə gəldikdə;

e) Universitetdə qadağan olunmuş yerlərdə siqaret çəkdikdə;

ə) imtahanların keçirilmə prosesini pozduqda;

f) ayrı-seçkilik etmək, dil, irq, milli mənsubiyyət, din və məzhəb kimi əlamətlərə görə qütbləşmələr yaradacaq fəaliyyət göstərdikdə;

g) əşyalara, qapı, pəncərə, divar və digər yerlərə dövlərə qarşı ideoloji və ya siyasi xarakterli yazılar yazdıqda, şəkil, emblem və s. yapışdırdıqda;

ğ) Universiteti və ya onun hər hansı bir qurumunu təmsil etmək səlahiyyəti olmadığı halda özünü səlahiyyətli şəxs kimi göstərərək bəyanatlar vermək, iclas və ya tədbirlərdə iştirak etmək;

h) Universitet binaları və ərazisində qadağan olunmuş yerlərə (anbar, zirzəmi, çardaq və s.) daxil olmaq;

j) Qeyri-qanuni fəaliyyət göstərən təşkilatlara üzv olması və ya bu təşkilatların lehinə fəaliyyət göstərməsi aşkarlandıqda;

k) Universitetin hər hansı bir əməkdaşına qarşı xüsusi kampaniya aparmaqla təhsilalanlar arasında imza toplayaraq, onları təşkilatlandırdıqda və ya buna cəhd etdikdə;

q) digər oxşar intizam pozuntusuna yol verdikdə.

**9.5. Universitetdən xaric edilmə-** təhsilalana tələbəlik hüquqlarından məhrum edilməsinin yazılı şəkildə bildirilməsidir. Təhsilalan aşağıda qeyd olunan daxili nizam-intizam qaydalarını kobud şəkildə pozduqda universitetdən xaric edilir.

a) Universitet əməkdaşları və təhsilalanlara hədə-qorxu gəldikdə;

b) Universitet əməkdaşları və və təhsilalanlara zor tətbiq etdikdə;

c) güc tətbiq edərək işçiləri və ya və təhsilalanları universitet xaricinə çıxardıqda, onların öz vəzifələrini icra etməsinə mane olmaq, başqalarını belə hərəkətlərə təhrik etdikdə;

ç) bilərəkdən, planlı şəkildə universitetin nüfuzuna xələl gətirən tədbirlər, iclaslar, mitinqlər və nümayişlər təşkil etməklə təbliğatlar apardıqda;

d) Universitet əməkdaşlarının şərəf və ləyaqətini, şəxsiyyətini ağır şəkildə təhqir etdikdə;

e) Universitetdə inzibati və ya cinayət tərkibli əməllər törətdikdə;

ə) Universitetin informasiya bazasına girərək özünün və ya başqasının lehinə qanunsuz əməliyyatlar apardıqda, bina və inventarlarını yararsız hala salmaqla informasiya sisteminə ciddi zərər vurduqda;

f) Universitetə aid olan hər hansı bir sənəddə olan imzanı saxtalaşdırdıqda;

g) Universitet sənədlərində dəyişikliklər etdikdə, başqalarını buna təhrik etdikdə:

ğ) Universitet əməkdaşlarını müxtəlif yollarla (rüşvət, hədiyyə və s.) ələ almaq məqsədi daşıyan davranışlara yol verdikdə;

h) digər oxşar intizam pozuntusuna yol verdikdə,

**9.6.** Təhsilalan eyni intizam qaydasını təkrar pozduqda ona növbəti daha ağır intizam tənbehi tətbiq edilir.

**9.7.** Universitet rəhbərliyi təhsilalanlara qarşı intizam tənbehi tətbiq edərkən törədilən pozuntunun xarakterini və aşağıdakıları nəzərə alır:

a) törədilən hadisənin ağırlıq dərəcəsi;

b) vurulan ziyanin dəyəri;

c) hadisənin baş vermə faktı və halları;

ç) intizam tənbehini yüngülləşdirən və ağırlaşdıran hallar;

d) hadisənin qəsdən və ya ehtiyatsızlıqdan törədilməsi;

e) tələbənin fəaliyyətini xarakterizə edən amillər;

ə) hadisənin baş verməsinə təsir edən səbəb və şərait.

**9.8.** Təhsilalana intizam tənbehinin tətbiq edilməsi fakültə dekanının yazılı təqdimatı ilə rektorun əmrinə əsasən həyata keçirilir. Təhsilalan 3 gün ərzində rektorun müvafiq əmri ilə tanış edilir.

**9.9**. İntizam tənbehi müvafiq hadisənin baş verməsinin aşkar olunduğu gündən 1 (bir) ay keçənədək tətbiq edilə bilər. Həmin gündən 6(altı) ay keçdikdən sonra təhsilalana qarşı intizam tənbehi tətbiq edilə bilməz.

**9.10**. Təhsilalana tətbiq edilən intizam tənbehi haqqında məlumat onun təhsil aldığı fakültənin elanlar lövhəsində yerləşdirilir.

**9.11**. Təhsilalana tətbiq edilən intizam tənbehi haqqında məlumat tələbənin şəxsi işinə əlavə edilir.

## X.İntizam tənbehindən apellyasiya şikayətinin verilməsi qaydası

**10.1.** İntizam tənbehi ilə bağlı rəsmi əmr haqqında təhsilalana məlumat veriləndən 3(üç) iş günu müddətində təhsilalan apellyasiya şikayəti verə bilər.

**10.2**. Apellyasiya şikayəti yalnız universitetdən xaric edilmə intizam tənbehi üçün verilə bilər.

**10.3.** Apellyasiya şikayəti birbaşa rektora ünvanlanır.

**10.4**.Apellyasiya şikayəti ilə bağlı rektor tərəfindən apellyasiya komissiyası yaradılır və 5(beş) iş günü müddətində araşdırma aparılır. İlkin araşdırmada iştirak edən şəxslər apellyasiya komissiyasının üzvü ola bilməzlər.

**10.5**. Apellyasiya komissiyası şıkayəti araşdırır və intizam tənbehi ilə bağlı verilən qərarın qüvvədə saxlanması, ləğv edilməsi və ya ona dəyişikliklər edilməsi barədə rekora tövsiyələrini verir.

**10.6.** Apellyasiya komissiyasının tövsiyələrinə əsasən rektor son qərar verir və bu qərar qətidir.

**10.7.** Təhsilalan intizam tənbehi tətbiq edildiyi gündən 1 il ərzində yenidən intizam məsuliyyətinə cəlb edilməmişsə, intizam məsuliyyətinə ümumiyyətlə cəlb edilməmiş sayılır.

**10.8.** Dərslərində və davranışlarında yaxşı göstəricilərə görə intizam tənbehi dekanın təqdimatı əsasında rektorun əmri ilə 6 aydan sonra vaxtından əvvəl götürülə bilər.

## XI. Yekun müddəalar

**11.1**.Qaydaların həyata keçirilməsinə Universitetin Daxili Nəzarət Şöbəsi nəzarət edir.

**11.2**.Qaydalara əlavə və dəyişikliklər Universitetin Elmi Şurasında müzakirəyə çıxarılır və Elmi Şuranın qərarı ilə qəbul olunur.

**11.3**. Qaydalar Universitetin Rektoru tərəfindən təsdiq edildiyi gündən qüvvəyə minir.